AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

Gəncə Dövlət Universitetinin Elmi Şurasının 19.01.2023-cü

il tarixli (protokol № 04) Qərarı və rektorluğun

30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmişdir

GDU-nun rektoru ______________ prof. Y.Ə.YUSİBOV

«30» ____01____ 2023-cü il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

# ANTİPLAGİAT VƏ AKADEMİK DÜRÜSTLÜK SİYASƏTİ

GƏNCƏ - 2023

Gəncə Dövlət Universitetində (GDU) professor-müəllim heyəti və tələbələrin riayət etməli olduğu akademik dürüstlük prinsipləri mövcuddur. Akademik dürüstlük universitetin əsas dəyərlərindən biridir, bütün professor-müəllim heyəti və tələbələrin bu prinsipləri bilməsi, başa düşməsi və onlara əməl etməsi vacibdir. Universitetin "Antiplagiat və akademik dürüstlük siyasəti" hazırlanan zaman Azərbaycan Respublikasının mövcud qanunvericilik aktlarına, universitetin Nizamnaməsinə, Strateji Planına və mövcud Elmi Şura qərarlarına istinad olunub.

**Akademik dürüstlük nədir?**

Akademik dürüstlük etik qaydalar çərçivəsində elmi araşdırmaların və akademik tədqiqatların aparılmasına, tədris vəsaitlərinin hazırlanmasına, dissertasiyaların və buraxılış işlərinin yazılmasına aiddir. Akademik dürüstlüyə uyğun hərəkət etmək bütün professor-müəllim heyəti və tələbələr üçün vacib bir öhdəlikdir. Bu çərçivədə universitetin hər bir professor-müəllim heyəti və tələbəsi tədris prosesində öz vəzifəsini vicdanla yerinə yetirməli, dərslərdə resurslardan düzgün istifadə etməli, başqalarının fikir və hüquqlarına hörmətlə yanaşmalıdır. Bu səbəbdən, universitetin akademik fəaliyyətini təmin etmək üçün "Elm haqqında", "Təhsil haqqında", "Patent haqqında", "Azərbaycan Respublikasında mülkiyyət haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunları, İnzibati Xətalar, Cinayət, Cinayət-Prosessual və İnzibati Prosessual Məcəllələri kimi normativ hüquqi aktları, Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi, universitetin Nizamnaməsi, Strateji Planı və Elmi Şurasının mövcud qərarlarına istinad edərək "Antiplagiat və akademik dürüstlük siyasəti"ni həyata keçirməsi zəruridir.

**Plagiat**

Plagiat başqasının əsərini, ideyalarını və ya ifadələrini öz işində istinad etmədən istifadə etmək deməkdir. Universitet tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində istifadə edilən bütün mənbələrə qaydalara uyğun olaraq istinad edilməsini tələb edir. Bu, akademik dürüstlüyün mühüm parametridir. Plagiat

akademik dünyada ciddi bir cinayətdir və qanuni cəzaları mövcuddur. Elmi-tədqiqat işlərində plagiat sonradan, dissertasiya müdafiəsi və qəbulundan sonra baş verərsə, əsas günahkar dissertasiyanın müəllifi hesab edilir. Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində plagiat riski yaradan bəzi nümunələr (lakin bunlarla məhdudlaşmır) aşağıdakılardır və hər bir şəxs onlardan mütləq çəkinməlidir:

- Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində başqa işdən götürülmüş abzasdan, cümlədən və ya cümlənin müəyyən hissəsindən istifadə edilməsi, lakin işdə, mətndə və ya ədəbiyyat siyahısında buna dair məlumatın daxil edilməməsi.
- Tədris vəsaitlərinə, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərinə başqa bir araşdırmanın ideyasının və ya şərhinin daxil edilməsi, lakin işdə, mətndə və ya ədəbiyyat siyahısında buna dair məlumatın daxil edilməməsi.
- Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində digər tədqiqatlardan götürülmüş anlayışlardan, tədqiqat nəticələrindən, statistik cədvəllərdən, şəkillərdən, qrafiklərdən və s. istifadə edilməsi, lakin işdə, mətndə və ya ədəbiyyat siyahısında buna dair məlumatın daxil edilməməsi.
- Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində başqa işdən götürülmüş abzasdan, cümlədən və ya cümlənin müəyyən hissəsindən istifadə edilməsi, lakin işdə, mətndə və ya ədəbiyyat siyahısında buna dair məlumatın daxil edilməməsi.
- Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində müəllifin əvvəllər öz işində olan fikirlərindən, cümlələrindən, paraqraflarından, nəticələrindən və s. istifadə etməsi, lakin işdə, mətndə və ya ədəbiyyat siyahısında buna dair məlumatı daxil etməməsi (self-plagiarism).

**Oxşarlıq və orijinallıq**

Orijinallıq akademik işin təməlini təşkil edir. Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində yeni ideyalar tapılmalı, bu ideyaları dəstəkləyən məlumatlar toplanmalı və ya təhlillər aparmaq yolu ilə əldə edilən nəticələr təqdim

edilməlidir. Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində müxtəlif mənbələrdən əldə edilmiş sitatlardan birbaşa istifadə olunması oxşarlıq kimi qiymətləndirilir. Tədris vəsaitlərini, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərini hazırlayan zaman ədəbiyyat siyahısında verilən araşdırmalardan istifadə edilməsi təbii haldır. Lakin çox oxşarlıq əsərin orijinallığına kölgə sala bilər. Oxşarlıq dərəcəsini təyin edən zaman universitet bütün tədris vəsaitlərini, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərini Plagiat.pl proqramı ilə yoxlamadan keçirir. Bu yoxlama zamanı qəbul edilmiş oxşarlıq əmsalı qaydalara uyğun olaraq təyin edilmişdir. Qəbul edilmiş qaydalardan kənara çıxan tədris vəsaitləri, elmi-tədqiqat, dissertasiya və buraxılış işləri qəbul edilmir və müəllifə geri qaytarılır. Geri qaytarılan tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində oxşarlıq əmsalı təyin olunmuş faizdən aşağı salındıqdan sonra müəllif öz işini yenidən yoxlamaq üçün universitetə təqdim edə bilir. Tədris vəsaitlərində, elmi-tədqiqat, dissertasiya və buraxılış işlərində qaydalara uyğun olaraq təsdiq etmə prosesləri yalnız oxşarlıq yoxlanıldıqdan sonra icra olunur.

**Süni intellektdən istifadə edilməsi**

Son illər dünyada baş verən yeniliklər nəticəsində Süni İntellekt (AI) tərəfindən dəstəklənən tətbiqlər getdikcə daha geniş yayılır. Nəticədə, süni intellektə əsaslanan tətbiqlər akademik aləmdə özünə yer tapmaqla yanaşı, bəzən müsbət, bəzən də mənfi nəticələrlə akademik dünyada istifadə olunur.

Süni intellektə əsaslanan tətbiqlər tədqiqatçılar üçün faydalı olmaqla yanaşı, eyni zamanda onlar üçün zərərli olmaqla öyrənmə prosesinə mənfi təsir göstərə bilər. Buna görə də, süni intellektə əsaslanan tətbiqlərin tədqiqatçılar tərəfindən necə faydalı şəkildə istifadə oluna biləcəyini müəyyən etmək çox vacibdir.

Süni İntellekt (AI) əsaslı tətbiqlər vasitəsilə tədqiqatların birbaşa AI tətbiqlərində yerinə yetirilməsi, tədqiqatların AI tərəfindən hazırlanaraq birbaşa çatdırılmasını təmin etmək və s. kimi məqsədlər üçün istifadə edilməsi həm akademik fəaliyyətə, həm də ingilis dilinin inkişaf etdirilməsinə mənfi təsir göstərir.

Süni intellektə əsaslanan proqramlar vasitəsilə təqdim edilən tapşırıqlar və ya tədqiqatlar akademik dürüstlük prinsipinə ziddir. Süni intellekt alətləri ideya, yazı və tədqiqatda kömək edə bilsə də, təcrübə, tədqiqat xarakterli məqalələr və tapşırıqlar da daxil olmaqla bütün akademik işlərə görə məsuliyyət son nəticədə tələbələrin öz üzərinə düşür. Bizlər tədqiqatçıların süni intellektə tənqidi təfəkkürün, təhlilin və yaradıcılığın əvəzedicisi kimi baxmaları yerinə, ona öyrənmə və bacarıqlarını artırmaq üçün bir vasitə kimi baxmağa təşviq edirik. Süni intellekt tətbiqləri vasitəsilə yerinə yetirilən tapşırıqlar və tədqiqatlar universitet tərəfindən qiymətləndirilmir.

**İnsanlar üzərində elmi-tədqiqat aparılması**

İnsanlar üzərində aparılan istənilən tədqiqat etik prinsiplər çərçivəsində aparılmalıdır. Bu cür işlərin icrası zamanı insanların hüquqlarını qorumaq üçün ilk öncə universitetin Etika Komissiyasına ərizə ilə müraciət edilməli, məsləhətləşmələr aparılmalı və razılıq əldə edilməlidir.

Ərizədə tədqiqatın məqsədi, metodları, iştirakçıların hüquqlarının müdafiəsinə və toplanacaq informasiyaların məxfiliyinə dair məlumatlar əks olunmalıdır. Tədqiqatda iştirak edəcək bütün hədəf iştirakçılar tədqiqatın məqsədləri, metodları və mümkün riskləri barədə tam məlumatlandırılmalı və onların razılığı alınmalıdır. Aydın şəkildə bildirilməlidir ki, iştirakçılar tədqiqatda könüllü olaraq iştirak edirlər və istənilən vaxt tədqiqatdan imtina edə bilərlər.

Tədqiqatçılar iştirakçıların şəxsi məlumatlarının məxfiliyinin qorunmasına və məlumatların təhlükəsiz saxlanılmasına cavabdehdirlər. İştirakçıların şəxsiyyətləri və onlara aid tədqiqat məlumatları yalnız etik və hüquqi qaydalar çərçivəsində istifadə edilməlidir. Bu istiqamətdə hazırlanmış tədqiqat təklifi təsdiq olunması üçün Etika Komissiyasına təqdim edilir. Komissiya təqdim edilmiş hesabatı qiymətləndirir və tədqiqatın etik standartlara uyğunluğu barədə qərar qəbul edir. Bu qərar tədqiqat başlamazdan əvvəl qəbul edilməli və bütün tədqiqat prosesi boyunca etibarlı olmalıdır.

**Digər akademik qanun pozuntuları və akademik cəhətdən qüsurlu davranış formalarına dair nümunələr**

**Köçürmə:** Hər hansı bir qiymətləndirmə prosesi zamanı icazəsiz kömək isdəmək və ya etmək, dərs deyən müəllimin icazəsi olmadan müvafiq prosesə kömək edə biləcək hər hansı bir yardımdan, materyaldan (şparqalka) və ya hər hansı bir digər dəstəktən istifadə etmək, yaxud ondan faydalanmağa cəhd etməkdir.

**Uydurma:** İstənilən akademik təhlil prosesi zamanı uydurma, təhrif edilmiş və ya təsdiqlənməmiş məlumatların təqdim edilməsidir. Məsələn: hər hansı bir təhlil aparmaq üçün məlumat toplamaq əvəzinə məlumat uydurmaq, mövcud məlumatları dəyişdirmək, mövcud olmayan məqalələrə istinad etmək və s.

**Akademik pozuntuya kömək etmək:** Hər hansı bir akademik pozuntu və ya akademik pozuntunun törədilməsində başqasına bilərəkdən kömək etmək, yaxud da kömək etməyə cəhd etmək. Məsələn: ev tapşırığı üzərində birlikdə işləmək.

**Haqsız yerə üstünlük qazanamaq:** Akademik qiymətləndirmə prosesində digər tələbələrə qarşı haqsız üstünlük əldə etməyə çalışmaq. Məsələn: İmtahan materiallarını icazəsiz əldə etmək və ya təmin etmək, qiymətləndirmə metodunda başqa tələbənin işinə mane olmaq və ya müdaxilə etmək, son təslim tarixi dəqiq olan bir qiymətləndirmə üçün əlavə vaxta ehtiyac olması barədə yalan danışmaq və s.

**Etik pozuntular və nəticələri**

Akademik etik qaydalarına əməl etməyən professor-müəllim heyəti və tələbələr müxtəlif cəzalar, o cümlədən intizam cəzaları ilə qarşılaşa bilərlər. Universitet tərəfindən bu pozuntuların baş verməməsinə ciddi yanaşılır və həm müəlliflərin, həm də universitetin akademik nüfuzunun qorunması üçün lazımi addımlar atılır.

**Nəticə**

GDU professor-müəllim heyəti və tələbələrindən akademik dürüstlüyə ən yüksək səviyyədə riayət etmələrini gözləyir və bunu dəstəkləyir. Bu prinsiplər elmi tədqiqatların əsasını təşkil edir və bütün professor-müəllim heyəti və tələbələrin uğurlu və etik akademik karyeralarını davam etdirmələri üçün çox vacibdir.